Allah Qiyamət günü yeri ovucuna alar, göyləri isə sağ əlində bükər, sonra deyər: "Mənəm hökmdar, yer üzünün hökmdarları haradadır?

Əbu Hureyra (Allah ondan razı olsun) demişdir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: Allah Qiyamət günü yeri ovucuna alar, göyləri isə sağ əlində bükər, sonra deyər: "Mənəm hökmdar, yer üzünün hökmdarları haradadır?".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurmuşdur ki, Qiyamət günü uca Allah yeri ovucuna alaraq toplayacaq, göyləri sağ əli ilə bükəcək, bir hissəsini digərinin üzərinə qatlayacaq və onları uzaqlaşdırıb yox edəcək, sonra deyəcək: Mənəm hökmdar, yer üzünün hökmdarları haradadır?!

http://www.sunnah.global/hadeeth/az/show/65028